# İ.Həbibbəyli bütün türk dünyasının fəxri yazıçısı haqqında



*Gülxani PƏNAH*

*(Əvvəli ötən saylarımızda)*

Cəlil Məmmədquluzadə ilə Çingiz Aytmatov yaradıcılığının müqayisəli təhlilini verən İ.Həbibbəyli Cəlil Məmmədquluzadənin "Ölülər" tragikomediyasının Çingiz Aytmatovun manqurtlaşma fəlsəfəsinin möhkəm bünövrəsini təşkil etdiyini, "Dəli yığıncağı" pyesi də, Çingiz Aytmatovun "Əsrə bərabər gün" romanı da mövcud cəmiyyətdəki ədalətsizlikləri, xaosu, çaşqınlığı dərin mahiyyəti ilə birlikdə əks etdirdiyini, Cəlil Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" povestindəki ürəyinin hökmü ilə yaşamaq uğrunda mübarizə aparan Zeynəb obrazının Çingiz Aytmatovun Cəmiləsinin böyük bacısı təsiri bağışladığını, Çingiz Aytmatovun əsərlərindəki "kiçik insanlar"ın hamısında Novruzəli saflığı, usta Zeynal ayıqlığı, Məhəmmədhəsən əmi bütövlüyü olduğunu, Cəlil Məmmədquluzadənin yaradıcılığında da və Çingiz Aytmatovun əsərlərində də kiçik adam geniş miqyasda xalq mənasını daşıdığını söyləyir: "XX əsrin əvvəllərində Cəlil Məmmədquluzadənin yaşayıb-yaratdığı dövrdə Çar Rusiyası rejimi, həmin yüzilliyin sonrakı mərhələlərində isə totalitar kommunist ideologiyası kiçik adamı cəmiyyətin böyük adamı səviyyəsinə yüksəlməyə imkan yaratmamışdır. Xalqların adi, sadə, qabiliyyətli, dərin mənəviyyata malik insanlarının yaşadıqları cəmiyyətin, mənsub olduğu xalqın, vətəndaşı olduğu məmləkətin əsas təmsilçisi, qurucusu və rəhbəri olması uğrunda mübarizə aparmağı mənasında Cəlil Məmmədquluzadə və Çingiz Aytmatovun sənət idealları qoşa zirvələrdə qərar tutur. Bu böyük sənətkarlar öz xalqlarının həyatından alıb təsvir etdikləri bədii obrazları həmçinin, digər xalqların eyni taleyə malik insanlarının həyatı və ümidlərinin ifadəsi səviyyəsinə qaldırmaq missiyasını uğurla həyata keçirmişlər".

Çingiz Aytmatovun Azərbaycan yazıçılarından Mirzə Fətəli Axundzadə, Səməd Vurğun, Rəsul Rza, İmran Qasımov, Bəxtiyar Vahabzadə, Anar, Hidayət, Hüseynbala Mirələmov, Şahmar Əkbərzadə, Sabir Rüstəmxanlı və başqalarının yaradıcılığına verdiyi yüksək qiymət Azərbaycan ədəbiyyatında gedən mühüm dəyişikliklərin fonunda yaranan böyük ədəbiyyatın obyektiv şəkildə dəyərləndirilməsi ilə yanaşı, həm də ədəbiyyatımızın geniş miqyasda təqdim olunmasına da xidmət etdiyini, Çingiz Aytmatovla "qürur" duyduğumuzu (Anar), dünya şöhrətli Azərbaycan bəstəkarı Qara Qarayevlə yaxından ünsiyyət saxladığı, onunla böyük sənət haqqında fikir mübadiləsi apardığı qeyd edilir: "O, Qara Qarayevi "dünyada baş verən qeyri-insani hərəkətlərə - müdafiəsiz insanların nahaq qanının axıdılmasına, onlara əzab və işgəncə verilməsinə heç zaman biganə qalmayan əsl sənətkar" kimi yüksək qiymət vermişdir".

Çingiz Aytmatovun Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutunda birlikdə təhsil aldıqları yazıçı İmran Qasımovla məslək dostluğunu, Moskvada və ya Qırğızıstanda onunla gündəlik sıx əlaqədə olan müasirlərindən fərqli olaraq çox uzaq məsafədə - Bakıda yaşayan, ara-sıra ümumittifaq tədbirlərində görüşdüyü və məktublaşdığı İmran Qasımovla daha dərindən ünsiyyət saxladığı və onunla çox ciddi ictimai-mənəvi mətləbləri bölüşdüyü vurğulanır: "Çingiz Aytmatovun Bakıya İmran Qasımova göndərdiyi 4 yanvar 1964-cü il tarixli məktubda "dəhşətli tənhalıq dəqiqələrində" yaşadığı hissləri və düşüncələri onunla bölüşməyə ciddi ehtiyac duyduğunu xüsusi olaraq qeyd etmişdir. Məktubdakı "səndən gizlədəsi heç nəyim yoxdur. Əksinə, çox şadam ki, öz düşüncələrimi səninlə açıq bölüşə bilirəm. Hər adama ürəyini boşaltmaq olmaz" - sözləri Çingiz Aytmatov - İmran Qasımov dostluğunun böyük etibarın əsl nümunəsi olduğunu göstərir".

1978-ci ildə Çingiz Aytmatovun İmran Qasımova ünvanladığı məktubdakı fikirləri ("Sənə əziz dostum" - deyə müraciət edərək düzü aralarda işləndikcə ucuzlaşan bu sözlərə görə daxilən narahatçılıq keçirirəm. Xüsusən, indiki zamanədə geniş təmaslar dövründə elə hər gələni "Əziz dost" adlandırmaq ümumi qaydaya çevrilib. Sən isə mənimçün sözün əsl mənasında, həqiqətən dostsan! Əsl dostsan! Çünki bunun ciddi, zamanla təsdiqlənmiş əsası vardır ...İmran, sənin müdrikliyin, heyrətamiz dostluq kultun sayəsində mən həqiqi dostluq haqqında bu qənaətə gəlmişəm") xatırladır, İ.Həbibbəyli "böyük etibarın, qarşılıqlı dərin mənəvi ehtiyacın əsl nümunəsi olan Çingiz Aytmatov - İmran Qasımov dostluq münasibətlərini "Əsrə bərabər gün" romanındakı Boranlı Yedigeylə Qazanqapın dostluğu ilə müqayisə etmək olar" - deyir.

Azərbaycanı çox sevən Çingiz Aytmatovun Bakıya səfərləri olub, İlk dəfə Bəxtiyar Vahabzadənin 60 illik yubileyi ilə əlaqədar keçirilən tədbir gəlib. 1985-ci ildə həyat yoldaşı Məryam xanımla Bakıya gəlmiş Çingiz Aytmatov öz çıxışında Bəxtiyar Vahabzadənin həyat və yardıcılığından ətraflı bəhs etməklə, onun türk dünyasının, türkdilli ədəbiyyatın aparıcı simalarından biri kimi yüksək qiymətləndirib. Çingiz Aytmatov xatirələrində yazır: "...Dünyada ad çıxaran çox şair var. Qəzet və jurnalları vərəqlədikcə görürsən ki, əsl şair azdır. Təktənha qalanda, bir neçə kəlmə ilə "Həyat nədir" sualına cavab axtaranda yalnız sözü fikirdən, obrazdan, ruh və nəfəsdən yoğrulmuş həqiqi şairlər sənin yaşamaq eşqinə, duşuncələrinə qol-qanad verir. Müasirimiz Bəxtiyar Vahabzadə belə şairlərdəndir...". İ.Həbibbəyli Çingiz Aytmatovun yaxın dostluq etdiyi xalq şairi Bəxtiyar Vahabzadə ilə münasibətlərinin böyük maraq doğurduğu, iki böyük sənətkarın dostluğunun təməlində "əsərlərindəki böyük vətəndaşlıq cəsarəti, millilik amili və bəşərilik meyarları" dayandığı, Bəxtiyar Vahabzadənin 2004-cü ildə nəşr olunmuş iki cildlik "Seçilmiş əsərləri"nə ön söz yazdığı, buradakı mülahizələri ("Bəxtiyar Vahabzadənin poetik təfəkkür mədəniyyəti təbiətcə millidir. ... Bununla yanaşı, Bəxtiyar Vahabzadənin poetik təfəkkür mədəniyyəti daha üstün mahiyyət kəsb edir və millilikdən ümumbəşəri səviyyəyə qalxır. ... Bəxtiyar Vahabzadə öz möhtəşəm poeziya məbədini ucaltmaqdadır. O qüdrətlidir. Bu məbədi ucaldan əllər mahir və qadir əllərdir") Bəxtiyar Vahabzadənin ölməz sənətinə Çingiz Aytmatov səviyyəsində verilmiş yüksək qiymət bilir.

Xalq şairi Bəxtiyar Vahabzadə də müxtəlif vaxtlarda Çingiz Aytmatovun sənəti və şəxsiyyəti haqqında öz fikirlərini bildirmiş, həmin sənətkarların ədəbiyyata baxışlarındakı ümumi cəhətlərdən çox, onların yaradıcılıqlarının ideyasənətkarlıq, millilik və bəşərilik baxımından yaxınlıq və doğmalığı qabardılmışdır, "qan qardaşı" adlandırdığı Çingiz Aytmatov haqqındakı fikirləri ("Aytmatov hər şeydən öncə mənim qan qardaşımdır. O, qırğız torpağının əli qələm tutan Batır Manası olmaqla yanaşı, həm də böyük türk dünyasının üzünü ağ edən XX əsrin klassikidir... Aytmatov qələminin sehri, ecazı dünya ədəbiyyatına misilsiz incilər bəxş edib... Çingiz Aytmatov mənim üçün yaş həddinə sığmayan, əsərləri ilə çoxdan əbədiyyətə qovuşan sənət cəngavəridir"), Azərbaycan Milli Akademik Dram Teatrının səhnəsində uğurlu tamaşaya qoyulmuş "Özümüzü kəsən qılınc" əsərinə baxmış, onu çox təsirləndirən bu tamaşaya yüksək qiymət verdiyi qeyd edilir.



İ.Həbibbəyli Çingiz Aytmatovun xalq yazıçısı Anarla münasibətlərini də "böyük sənətin qarşılıqlı dialoqu kimi cəlbedici və əhəmiyyətli" bilir. 19 oktyabr 2018-ci ildə Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun dəstəyi ilə Qırğızıstan SSR-in Xalq yazıçısı, Qazaxıstanın Xalq yazıçısı, Qırğız Respublikasının Qəhrəmanı, Qırğızıstan SSR Elmlər Akademiyasının akademiki, Sosialist Əməyi Qəhrəmanı, Lenin və SSRİ-nin üç Dövlət Mükafatı Laureatı Çingiz Aytmatovun "Cəmilə" povesti əsasında qırğız dilində tamaşanın baxışı zamanı Anar Çingiz Aytmatovla bağlı xatirələrini bölüşərkən bildirir ki, "Çingizin uşaqlıq və yeniyetməlik illəri ağır keçib, onun atası Stalin repressiyalarının qurbanı olub. Bu, yazıçının yaradıcılığına da təsirsiz ötüşməyib, onun mənəvi dəyərlərin ön planda olduğu bütün əsərləri oxucuda dərin təəssürat doğurur. Biz Çingiz Terekuloviçlə Bakıda, Bişkekdə, Ankarada və digər şəhərlərdə dəfələrlə görüşmüşük, onunla öz düşüncələrimi bölüşmüşəm və həmişə dəstək görmüşəm". C.aytmatovun atası Torekul Aytmatov görkəmli dövlət xadimi olmuşdur. 1937-ci il repressiyasına məruz qalmış, həbs edilmiş, 1938-ci ildə isə güllələnmişdir.

Anar yazır: "az yazıçı adı çəkmək olar ki, Aytmatov kimi yer üzündəki bütün canlı məxluqları bu qədər dərindən və dəqiq tanısın, insan iztirablarının bütün varlıqlarla sirli vəhdətini duya bilsin, kəhər Gülsarının, ya qara nərin taleyini bəşər övladının ömrüylə əlaqələndirməyi bacarsın". Anarın Çingiz Aytmatov və Azərbaycan ədəbiyyatı məsələsinə də aydınlıq gətirdiyini ("Bizim nəslin Azərbaycan yazıçıları milli ədəbiyyatın zəminində yetişdiyi Böyük Cəlil Məmmədquluzadənin mənəviyyat dərslərini mənimsədi, eyni zamanda, ölkə və dünya ədəbiyyatına da bələd oldu. İki müasir nasirin təcrübəsi bizimçün xüsusi əhəmiyyət kəsb elədi! Mən İsa Hüseynovu və Çingiz Aytmatovu nəzərdə tuturam") qeyd edir.

"Çingiz Aytmatov və Azərbaycan ədəbiyyatı" mövzusunun "Azərbaycan və qırğız ədəbiyyatlarının və xalqların dostluğunun çox canlı bir nümunəsi" kimi qiymətləndirən İ.Həbibbəyli, dünya xalqlarının, xüsusən türk xalqlarından hər birinin Çingiz Aytmatovu ilk növbədə öz xalqının doğma yazıçısı olaraq qəbul etdiyini, bununla belə, Çingiz Aytmatovun "dünyada oxşar taleləri yaşayan, insan, zaman, cəmiyyət və gələcək haqqında eyni və ya bənzər düşüncədə olan xalqların hamısının görkəmli yazıçısı" olduğunu söyləyir.

Bir çox qələm sahiblərimizin (Şahmar Əkbərzadə, Vilayət Rüstəmzadə, Aydın Məmmədov, Əhməd Qəşəmoğlu, Adil Cəmil, Əli Mahmud) Çingiz Aytmatovla onun vətəni Qırğızıstanda görüşdüyünü, müsahibələr alıb Azərbaycan mətbuatında çap etdirdiyini, Azərbaycan rəssamı Cavad Mircavadovun Çingiz Aytmatovun təşəbbüsü ilə Moskvada fərdi yaradıcılıq sərgisinin keçirildiyi, Çingiz Aytmatovun Cavad Mircavadovun tablosunu həmişəlik özünün Bişkekdəki iş otağından asdığını, digər bir əsərini isə Nobel mükafatı laureatı Qabriel Qarsia Markesə göndərməklə Azərbaycan təsviri sənət ustasının geniş dairədə tanıdılmasına yaxından kömək göstərdiyini bildirir.

Azərbaycanda Çingiz Aytmatovun həyatı və yaradıcılığının tədqiq edildiyini (filologiya elmləri doktoru Leyla Gərayzadənin "Rusdilli türk yazıçılarının yaradıcılığında etno-epik yaddaş problemi" mövzusunda yazdığı doktorluq, Ülviyyə Hüseynovanın "Çingiz Aytmatovun rusdilli əsərlərində türkizmlər" mövzusundakı filologiya üzrə fəlsəfə doktorluğu, Mehman Həsənlinin "Çingiz Aytmatov və Azərbaycan ədəbiyyatı" adlı dissertasiyaları) yazır.

Çingiz Aytmatovun əsərlərinin hələ keçən əsrin 60-cı illərindən Azərbaycan dilinə tərcümə olunduğu və elmi-ədəbi mühitdə böyük maraqla qarşılandığı ("Cəmilə" (1961) və "Köşək gözü" (1963) povestləri (tərcüməçi Qılman Musayev), "Qırmızı yaylıqlı qovağım mənim" (1965) povesti, "Əsrə bərabər gün" (1983) romanı (İshaq İbrahimov), "İlk müəllim" (1965), "Ana tarla" (1966) və "Ağ gəmi" (1980) povestləri (Cəmil Əlibəyov), "Dəniz kənarıyla qaçan alabaş" povesti (Xeyrulla Əliyev, 1979), "Erkən gələn durnalar" (1990) povesti (Vilayət Rüstəmzadə), "Qiyamət" romanı (Vaqif Əlixanlı, 1990), "Çingiz xanın ağ buludu" povesti (Məti Osmanoğlu, 1992), "Oğulla görüş", "Köçəri quşların göz yaşları", "Balaca əsgər", "Dəhnəçi", "Qırmızı alma", "Buynuzlu ana maral", "Manqurt əfsanəsi", "Öldürək-öldürməyək" hekayələri (İbrahim İlyaslı, 2014), "Üz-üzə" (Mehman Həsənli, 2016) povesti, "Kassandra damğası" romanı (Nərgiz Cabbarlı, 2018) "Azərbaycan oxucusunun yaddaşında və mütaliəsində" geniş yer tutduğu bildirilir.

*(Davamı 14-cü səhifədə)*

# İsa Həbibbəyli bütün türk dünyasının fəxri yazıçısı haqqında

*(Əvvəli üçüncü səhifədə)*

İ.Həbibbəyli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamından sonra Çingiz Aytmatovun "Seçilmiş əsərləri"-nin kitab halında ölkəmizdə dəfələrlə kütləvi tirajla çap olunduğunu, anadan olmasının 80 illiyi 2008-ci ildə Azərbaycanda böyük təntənə ilə qeyd olunduğu, haqqında kitablar (Südabə Sərvinin tərtibi ilə 2009-cu ildə "Çingiz Aytmatov. Mən Manas oğluyam" kitabı, Elnarə Akimovanın çapa hazırladığı "Çingiz Aytmatov - Türk ruhunun qələbəsi" kitabı) çap olunduğunu yazır.

Qırğızıstan-Azərbaycan ədəbi əlaqələrinin möhkəmlənməsində, inkişafında Çingiz Aytmatov yaradıcılığının böyük rolunu qeyd etmək yerinə düşər. Azərbaycanın Qırğızıstandakı səfirliyinin təşkilatçılığı ilə Qırğızıstan Milli Kitabxanasında "Çingiz Aytmatov-türk ruhunun təntənəsi" kitabının təqdimatı və "Odlar yurdu-Azərbaycan" mövzusunda kitab sərgisi keçirilib. Çingiz Aytmatovun 85 illiyi münasibətilə hazırlanan kitabın təqdimatında Milli Məclisin Mədəniyyət komitəsinin sədri, AMEA-nın müxbir üzvü Nizami Cəfərov, millət vəkili Sədaqət Vəliyeva, Qırğızıstan rəsmiləri, səfirlər, elm, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə Azərbaycan və qırğız dillərində çap edilən kitabda Anar, Nizami Cəfərov, Oljas Suleymenov, İsa Həbibbəyli, Şahmar Əkbərzadə və digər Azərbaycan, rus, qazax, qırğız ədib və alimlərinin Çingiz Aytmatov haqqında məqalə və xatirələri toplanıb. Kitaba "Ön söz"ü Azərbaycanın Qırğızıstandakı səfiri yazıçı Hidayət Orucov yazıb.

İ.Həbibbəyli Azərbaycanda Çingiz Aytmatovun anadan olmasının 90 illiyi münasibətilə keçirilən geniş tədbirləri (Mərkəzi ofisi Bakı şəhərində yerləşən Türk Dövlətləri Parlament Assambleyası xətti ilə ədibin oğlu Askar Aytmatovun da iştirak etdiyi 15 may 2018-ci il tarixdə keçirilmiş xatirə gecəsi, Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 13 iyul 2018-ci il tarixdə "Çingiz Aytmatov: milliliklə bəşəriliyi birləşdirən fenomen" mövzusunda keçirdiyi beynəlxalq simpozium, Çingiz Aytmatovun "Ana tarla", "Dəniz kənarı ilə qaçan alabaş", "Əsrə bərabər gün" və başqa əsərləri əsasında hazırlanmış tamaşaların Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı, Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrının səhnələrinə çıxarılması) ölkəmizin mədəni həyatında əlamətdar hadisə kimi qiymətləndirir.

Sözün əsl mənasında Çingiz Aytmatovu "bütün dövrlərin və zamanların əbədiyaşar qüdrətli sənətkarı", "dünya ədəbiyyatının real gerçəkliyi, qırğız xalqının və ədəbiyyatının əfsanəsi", "türk dünyasının milli iftixarı" kimi yüksək qiymətləndirən İ.-Həbibbəyli haqlı olarqaq bu fikirdədir ki, "Çingiz Aytmatov dünya ədəbiyyatının əbədi mogikanı olmaq şərəfi qazanmışdır. Geniş planetar baxışlara malik olan Çingiz Aytmatovun ölməz əsərləri və ideyaları özündən sonrakı ideal cəmiyyətin və böyük ədəbiyyatın manifestidir. Yer kürəsi və dünya ədəbiyyatı hələ bir neçə əsr Çingiz Aytmatovun həyat, müasir cəmiyyət və sənət ideallarına doğru yol gedəcəkdir. Çingiz Aytmatov - böyük ədəbiyyatın əbədiyyət rəmzidir".

İ.Həbibbəylinin qırğız yazıçısı, eləcə də türk dünyasının, bəşəriyyətin yazıçısı kimi tanınan Cingiz Aytmatov yaradıcılığı ilə bağlı geniş məqaləsində monoqrafik keyfiyyətlər diqqəti çəkir. Yazıçının böyük ədəbi faəliyyəti mərhələlər üzrə tədqiq olunur. Hər bir mərhələdə ərsəyə gələn əsərlərinin ideyaməzmun xüsusiyyyətləri, bəşəri keyfiyyətləri, milli-mənəvi keyfiyyətləri araşdırılır, təhlil edilir, böyük sənətkarın yaradıcılıq ustalığı, zəngin bədii düşüncəsi, yaradıcılıq imkanları tədqiq olunur.

İ.Həbibbəylinin Cingiz Aytmatov və Azərbaycan münasibətləri ilə bağlı araşdırmaları, burada qoyulan problemlərin aktuallığı özü bir monoqrafik tədqiqat işidir. C.Aytmatovun Azərbaycan ədibləri, Azərbaycan dövlətinin rəhbərləri, incəsənətin müxtəlif sahələrində çalışan istedad sahibləri ilə əlaqəsi, dostluğu, fikir mübadilələri İ.Həbibbəylinin professional ədəbiyyatşünas diqqətindən yayınmır.

Dünya xalqlarının, xüsusilə türk dünyasının böyük sənət sahiblərinin yaradıcılığının tədqiqi və tədqiqatı baxımından bu məqalələrinin xüsusü əhəmiyyət kəsb etdiyini görürük. İ.Həbibbəylinin intellekt düşüncəsi, geniş məlumat dairəsi, çoxsaxəli yaradıcılıq fəaliyyəti, dünya xalqlarının, eləcə də türk dünyasının ədəbiyyatına, incəsənətinə dərindən bələdliyi onun ədəbiyyatşünas imkanlarının genişliyinə, müraciət etdiyi mövzuların çoxçeşidliliyinə imkan yaradır.

İ.Həbibbəylinin Çingiz Aytmatov yaradıcılığı ilə bağlı silsilə məqalələri Azərbaycan ədəbiyyatşünaslığında Cingiz Aytmatov yaradıcılığı ilə bağlı yeni elmi-tədqiqat işlərinin genişləndirilməsinə, aparılmasına yol açır. Elmi rəhbəri İ.Həbibbəyli olan Iauiai Uynyi AIAA-iui Ieçaie Yyicyae aauia ?ayaeeeao Eintetotonda "?eiyeç Aetiatia ay Açy?aaecai yayaeeeatu" mövzusunda namizədlik dissertasiyası müdafiə edib.

Gələcək tədqiqatçılar Çingiz Aytmatovun bədii irsi ilə bağlı bu məqalələrdə qoyulan məsələləri daha ətraflı, geniş şəkildə təhlil və tədqiqata cəlb edə bilərlər...